# Azərbaycan ilə Qara Dəniz Ticarət və İnkişaf Bankı arasında əməkdaşlıq müzakirə edilib

İyunun 16-da Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov ölkəmizdə səfərdə olan Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) prezidenti Serhat Köksalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə QDTİB arasında əməkdaşlığın cari vəziyyəti və perspektivləri, iyul ayında keçiriləcək Rəhbərlər Şurasının İllik Toplantısı, bankın abunə kapitalının artırılmasında Azərbaycanın iştirakı, regiondakı mövcud geosiyasi vəziyyətin bankın maliyyə durumuna təsiri, ölkəmizdə həyata keçirilən layihələrdə bankın iştirakının genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Qeyd olunub ki, QDTİB-in Rəhbərlər Şurasının 2021-ci ilin oktyabrında keçirilən 14-cü Xüsusi Toplantısında bankın abunə kapitalının artırılmasına dair qərar qəbul edilib. Azərbaycana ümumi dəyəri 41,032 milyon avro təşkil edən 36,680 ədəd səhm təklif edilib ki, bunun da 12,310 milyon avro məbləğində olan hissəsi 8 il ərzində bərabər hissələrlə banka ödənilməlidir. Abunəliklə bağlı ilk ödəniş 2023-cü ilin sonunadək həyata keçiriləcək.

Qara Dəniz Ticarət və İnkişaf Bankı beynəlxalq dövlətlərarası maliyyə kredit təşkilatıdır. QDTİB iqtisadi inkişafı və regional əməkdaşlığı dəstəkləyir, üzv ölkələrdə dövlət və özəl sektorlarda layihələr üçün kreditlərin verilməsi, kredit xətlərinin açılması, investisiyaların və zəmanətlərin verilməsində və ticarətin maliyyələşdirilməsində iştirak edir.

Azərbaycan. - 2023.- 17 iyun.- S.10.